INSTITUTE OF SOCIAL STUDIES AND ANALYSIS

ღია
საზოგადოების
ფონდი

# Siyasi tövsiyələr sənədi- etnik azlıqların nümayəndələrinin siyasi iştirakının təkmilləşdirilməsi

# 2019 –cu il.

***Yekun***

*Qeyd edilən siyasi sənəd Gürcüstanda yaşayan etnik azlıqların nümayəndələrinin siyasi həyatda iştirakının araşdırılmasına əsaslanır ki, bu da " Açıq cəmiyyət fondunun" dəstəyi ilə, sosial tədqiqat və analiz institutu tərəfindən 2018-2019-cu illərdə həyata keçirildi. Layihənin məqsədi, etnik azlıqların inteqrasiyası və siyasi həyatda iştirak etmələri baxımından mövcud olan vəziyyətin dəyərləndirilməsi idi. Gürcüstanda bənzər fokusla araşdırma indiyə qədər aparılmayıb. Onu da nəzərə almaq lazımdır ki, bu araşdırma əsasən etnik azlıqların kompakt məskunlaşdığı regionlarda yaşayan nümayəndələrinin mövqelərinə diqqət yetirir[1]. Buna müvafiq olaraq da, sözü gedən araşdırmaq dövlət səviyyəsində etnik azlıqların siyasi və mülki məşğulluq imkanlarının daha da gücləndirilməsi və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli dəlillər mənbəyidir.*

***Giriş***

*Bu sənəddə təqdim edilən tövsiyələrin mənbəyi bir tərəfdən araşdırma prosesində etnik azlıqların nümayəndələrinin özlərinin təqdim etdiyi təkliflər, digər tərəfdən isə, analoji siyasətin ən gözəl beynəlxalq təcrübələridir. Tövsiyələrin bir digər mənbəyi isə sosial tədqiqat və analiz institutu tərəfindən aparılan tədqiqatın nəticələri ilə tanış olmaq məqsədilə 2019-cu ilin mart ayında keçirilən işçi görüşləri zamanı səsləndirilən, müzakirədə iştirak edən mütəxəssislərə, siyasi partiyalara, yerli və mərkəzi hakimiyyət nümayəndələrinə, eləcə də qeyri hökumət təşkilatlarının nümayəndələrinə aid olan fikirlərdir.*

*Siyasi sənəddə təqdim edilən təkliflər konkret siyasi təşəbbüslər və hökumət proqramları/layihələri olaraq təsvir etmək imkanı verir. Bununla yanaşı, siyasi sənəddə təqdim edilən tövsiyələrin bir hissəsinin ünvanı qeyri hökumət təşkilatları, donor təşkilatlar və biznes sektordur. Ümumilikdə, burada təqdim edilən tövsiyələrin həyata keçirilməsi Gürcüstanın çox etnik cəmiyyətinə inteqrasiya göstəricilərinin daha da gücləndirilməsinə şərait yaradacaq.*

*Tədqiqatın göstəriciləri bir neçə istiqamətdə istifadə edilmişdir: bir tərəfdən tədqiqat göstəriciləri bizə etnik azlıqların nümayəndələrinin fikrincə dövlət sektoru tərəfindən həyata keçirilən cəhdlərə baxmayaraq hələ də həll edilməmiş qalan və dövlət tərəfindən tənzimləmə üçün yaradılan hədəf qruplarının mövqelərinin maksimum şəkildə nəzərə alınması əsasında həyata keçirilməsi imkanlarını əhatə edən konkret problemlərin meydana çıxarılmasına imkan verəcək. Ikinci tərəfdən isə, bu göstəricilər bizə siyasətin gələcək addımlarının konkret dəlillər əsasında müəyyən edilməsinə imkan verəcək.*

## Etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq problemləri

Etnik azlıqların nümayəndələrinin mövqeyinə görə tənzimləmə tələb edən problemləri 4 növə ayırmaq olar: strateji, institutional, proqram-layihə və operativ. Problemlər üzərində müzakirə aparmaq və onların həll edilməsi üçün konkret tövsiyələr sıralaması da siyasi sənəddə məhz bu quruluşla təqdim edilmişdir.

---

[1] Tədqiqat çərçivəsində alınan məlumatlar etnik azlıqların siyasi iştirakı haqqında kütləvi sorğuya əsaslanır, sorğu Samtsxe Cavaxetidə, Kaxetidə, Kvemo Kartlidə, Tbilisidə və Batumidə keçirilmişdir. Onu da nəzərə almaq lazımdır ki, şəhər tipli yaşayış məskənlərində kiçik etnosların nümayəndələri sorğulandılar ( mühasiblərin 20.7% -i). Onlar özlərini rusdilli, kürd/ yezid və ya qaraçı icmasına aid edirlər. Sorğulananların 20.5% -i erməni, 20.2% -i azərbaycanlı, 20.1% -i kist, 18.6%-i osetin icmasına aiddir. Onlar ölkənin Cənubunda – Samtsxe Cavaxetidə və Kvemo Kartlidə, Şərqdə isə Kaxeti regionunda kompank yaşayırlar.

1. **Strateji səviyyədə tənzimləmə dövlət siyasətinin gündəliyində etnik azlıqlarla bağlı məsələlərin daha çox təqdim edilməsini və daha sıx intensivliklə müzakirə edilməsini nəzərdə tutur.** Bəhs edilən məsələ, tədqiqat nəticələrinin təqdim edilməsi zamanı etnik azlıqların nümayəndələri tərəfindən fəal olaraq diqqətə çatdırıldı və respodentlərin mövqeləri də fəal şəkildə nəzərə çarpır. Belə bir tələb, həm milli, həm regional, həm də yerli səviyyələrdə nəzərə çarpır. Etnik azlıqların nümayəndələrinin fikrincə, siyasi proseslərdə etnik azlıqların iştirak səviyyəsinin yüksəldilməsinə şərait yaradacaq tövsiyyələr arasında etnik azlıqlar üçün tədqiqat prosesində təklif edilən müddəaların dəstəklənmə dərəcəsi də nəzərdə tutulmuşdur. Erməni və azərbaycanlı icmalarında əsasən aşağıda göstərilən iki amil dəstəklənmişdir: 1. Gürcüstan hökuməti \yerli bələdiyyələr etnik azlıqların siyasi fəaliyyətə qoşulmasına daha çox şərait yaratmalıdırlar (43.6% və 47%) və 2. Siyasi partiyalar öz fəaliyyətlərində etnik azlıqların nümayəndələrinin daha çox iştirak etməsinin qeydinə qalmalıdırlar (45% və 44.5%). Kist respodentlər əsasən düşünürlər ki, siyasi qatılımın artırılması üçün Gürcüstan parlamenti seçki məcəlləsinə mütləq öhdəlik əlavə etməlidir ki, siyasi partiyalar öz fəaliyyətlərinə etnik azlıqların nümayəndələrini daxil etsinlər (59.9 %). Osetin icmasında (40.8%) etnik azlıqların siyasətdə iştirakını media vasitələrinin etnik azlıqların siyasi proseslərdə iştirak etməsinin əhəmiyyətindən nə dərəcə danışdığı/ yazdığının artırdığı fikri geniş yayılmışdır (ISSA, 2019, diaqram, # 43.).




Buradaca, onların hər birinə nail olmaq üçün mövcud olan bütün konkret yollar açıq şəkildə dərk

edilməlidir ki, sadəcə elan səviyyəsində qalmasın və praktik olaraq həyata keçirilməsinə daha çox imkan verilsin. Bu şərtlərdə, vətəndaşların siyasi birlikləri haqqında Gürcüstan qanununun regional və ərazi birliyinə əsasən partiya yaradılmasını qadağan etdiyi vəziyyətdə, mövcud şərtlərdə fəaliyyət göstərən siyasi partiyalar tərəfindən öz gündəliklərində etnik azlıqlar mövzusu ilə daha çox maraqlanmağa və onların nümayəndələrinin öz sıralarında daha çox təmsil edilməsinə ( analoji tövsiyə majoritar siyahı ilə namizədlərin irəli sürülməsinə də aiddir) xüsusi vurğu edilməlidir.

Bu baxımdan gender işarəsi ilə nümayəndələrin həvəsləndirilməsi üçün öz sıralarına etnik azlıqların nümayəndələrinə yer verən siyasi subyetklər üçün dövlət maliyyələşdirilməsinin iki qat artırılması kimi mexanizmlərin istifadə edilməsi mümkündür. Cəlb etmə mexanizmi olaraq siyahının hər onluğunda etnik azlıqların nümayəndələrinin qeyd edilməsi ən gözəl mexanizm olar, bununla da öhdəliklərin formal olaraq yerinə yetirilməsindən və siyahının sonunda öhdəliklərin konkretləşdirilmədən qeyd edilməsi kimi təcrübələrdən boyun qaçıra bilərik.

Sosial tədqiqat və analiz institutu tərəfindən aparılan tədqiqatın nəticələri ilə tanış olmaq məqsədi ilə 2019-cu ilin mart ayında keçirilən işçi görüşü zamanı səsləndirilən tövsiyələr arasında etnik azlıqların etnik və dini bayramlarına müvafiq hörmət xüsusi vurğulanır və onların yalnız prezidentin, baş nazirin və ya dövlət sektorunun rəsmi şəxslərinin təbrikləri ilə qeyd edilməsi deyil, həmçinin rəsmi istirahət günü olaraq elan edilməsinə diqqət yetirilir.

2. **İnstitutional səviyyədə qaldırılan problemlər arasında aktual olan problem etnik azlıqların siyasi və mülki məşğulluq institutları çərçivələrinin genişləndirilməsidir.** Etnik azlıqların maraqlarının müdafiə edilməsi və dəstəyin təmin edilməsinə yönləndirilmiş, xalq müdafiyəçisi yanında olan etnik azlıqlar komitəsi və ya mərkəzi seçki komisiyasında olan etnik azlıqlarla bağlı məsələlər üzərində işləyən, daim fəaliyyətdə olan qrup kimi mexanizmlərin miqdar və funksional baxımdan genişlənməyə ehtiyacı var. Bu qrupa seçki administrasiyasının nümayəndələri ilə birlikdə qeyri hökumət təşkilatları da üzv olurlar. Məsələn, dairə seçki komisiyalarında etnik azlıqların nümayəndələri onların sayının ən çox olduğu munisipolitetlərdə sayca daha çox təmsil edilməlidirlər. Mərkəzi seçki komisiyası tərəfindən məntəqə seçki komisiyalarının işində azərbaycanlıların, ermənilərin, osetinlərin və rusların nümayəndələrinin iştirak etməsini nəzərdə tutan bir sıra cəhdlərin olmasına baxmayaraq, bu istiqamətdə işlər yenə də fəallaşdırılmalıdır. Analoji olaraq, dövlət sektoru administrasiyası sahəsində (həm milli, xüsusilə də regional və yerli bələdiyyələr səviyyəsində) etnik azlıqların nümayəndələrinin sayının artırılması da gündəlikdə duran məsələdir. İnstitutional səviyyədə etnik azlıqların nümayəndələri olan fəalların və birliklərin advokatlaşdırılması təcrübəsi də əhəmiyyətli dərəcədə təkmilləşdirilmə tələb edir. Etnik qrupların advokatlaşdırılmasını nəzərdə tutan bir sıra təşəbbüs mövcud olmasına baxmayaraq ( bu sıradan EMC tərəfindən bir layihə çərçivəsində planlaşdırılan “bərabərlik və həmrəylik şəbəkəsi”-nin yaradılmasını qeyd etmək olar. Bu şəbəkə müxtəlif siyasi partiyaların, dövlət qurumlarının, akademiya və aktivist qrupların nümyəndələrini birləşdirir və dini və etnik azlıqların problemləri haqqında yeni perspektivlərin dərk edilməsi və sosial dəyişikliklərin dəstəklənməsinə çalışır), advokatlaşdırmanın mövcud təcrübəsi daha yüksək səylə dəstək tələb edir.

3. **Proqram və layihə səviyyəsində** tənzimləmə etnik qruplar üçün tədqiqat prosesi zamanı ən aktual olaraq səsləndirilən problemlərlə əlaqələndirilir. Etnik azlıqlar tərəfindən işsizlik və kasıblıq iki ən ağır problem kimi, Gürcüstan əhalisinin də vurğuladığı əsas problemlər sıralaması ilə uyğunlaşır. Qafqaz barometrinin 2017-ci ildə apardığı sorğuya əsasən, əhali üçün ölkədə mövcud olan ən əhəmiyyətli problem işsizlik (76.6%), daha sonra isə kasıblıqdır (43.3) (Qafqaz Barometri, 2017). Ancaq, tədqiqatın da təsdiq etdiyi kimi, hər iki problem etnik azlıqların qruplarında da aktualdır, lakin 52.5 faizlə kasıblıq daha kəskin

şəkildə görünür, nəinki ümumi milli göstəricilərlə müqayisədə nisbətən daha az ağır olan (67.4%) işsizlik. Aparılan tədqiqatın nəticələrindən görünür ki, qadınlardan daha çox (61.4%) kişilər tərəfindən (73.9%) işsizlik problemi daha kəskin şəkildə qoyulmuşdur. Etnik qrupların daxilində işlə təmin edilmə məsələsi fəal problem kimi kist (85.9%), ermədilli (84.7%) və azərbaycandilli (80%) icmalarda nəzərə çarpır. Kasıblıq problemi isə demək olar ki, bütün etnik qruplarda bərabər səviyyədə yayılmışdır, xüsusilə azərbaycanlı (65.3%) və osetin (61.2%) qruplarında vəziyyət ağırdır. Tədqiqat göstərir ki, dövlət dilinin bilinməməsi məsələsi də xüsusilə azərbaycandilli icmada aktual problemdir. Bu problemi etnik azərbaycanlılar (43.5%) və etnik erməni (20.2%) respodentlər xüsusi vurğulayırlar. Etnik qruplar daxilində mövcud olan başqa ağır problemlər də qeyd edilməlidir: azərbaycanlı icması üçün məskunlaşmışlardan başqa eyni zamanda səhiyyənin əlçatanlığı (18.8%) və torpaqların qanuniləşdirilməsi məsələsi (16.7%) də problemli məsələdir. Kist icmasında ölkənin ictimai və siyasi həyatına qoşulmağına aşağı dərəcəsi (19.4%), onların etnik qruplarından olan nümayəndələrin hüquqlarının pozulması (18.5%) və torpaqların qanuniləşdirilməsi məsələsi (18.3%) aktual problemdir. Osetin icmasında isə aşağıdakı problemlər meydana gəlmişdir: torpaqların qanuniləşdirilməsi məsələsi (22.1%) və səhiyyənin əlçatanlığı (19.5%). Şəhər tipli yaşayış məskənlərində yaşayan kiçik etnosların nümayəndələrinə gəldikdə isə, ortaya çıxan əsas problem işsizlik (42.5%) və kasıblıq (42.1%) problemləridir. Sözü gedən sıralama bizə dövlət tərəfindən etnik azlıqların məskunlaşdığı ərazilərdə mövcud olan problemlərin idarə edilməsinin nisbətən daha məqsədyönlü şəkildə planlaşdırılması üçün imkan verir. Elə buradaca dövlət institutlarına qarşı etimadın aşağı səviyyəsinin ümummilli göstəricilərinə paralel olaraq, aşağıda göstərilən amil nəzərə alınmalıdır – Gürcüstan mərkəzi hakimiyyəti bu və ya digər etnik azlıqların ehtiyacları və problemləri ilə maraqlanır- müddəası ilə ümumi respodentlərin 43.1%-i razılaşır (“tamamilə razılaşır” və ya “əsasən razılaşır”). Etnik qrupların daxilində isə: osetin respodentlərin 63.2%-i, erməni və kist respodentlərin 44.4%-i, kiçik urban etnoslarının nümayəndələrinin 38.8%-i və azərbaycanlıların isə 30.9%-i (ISSA, 2019, diaqram # 27). Buna müvafiq olaraq da, etnik azlıqların ehtiyaclarının tənzimlənməsi Gürcüstan hökumətinin prioritetlərində dəyişikliklər tələb edir.

4. **Operativ səviyyədə tənzimləmə** əsasən mövcud proqramların və layihələrin həyata keçirilməsində mövcud olan nasazlıqların aradan qaldırılması mütləqiyyəti ilə əlaqələndirilir. Belə ki, məsələn, Gürcüstanın yüksək ali təhsil müəssisələrinə etnik azlıqların nümayəndələri olan abituriyentlərin 4 illik tədris almaq məqsədi ilə bir illik hazırlıq kursuna qəbul olunması izoliyasiya edilmiş mühitdə deyil, daha çox inteqrasiya olunmuş mühitdə həyata keçirilməlidir. Sosial tədqiqat və analiz institutu tərəfindən 2019-cu ilin mart ayında keçirilən müzakirədə iştirak edən etnik azlıqların nümayəndələri qeyd edirlər ki, bu problemlər əksər hallarda, İlia Dövlət Universiteti kimi (ayrı korpuslar, universitetin əsas sahəsindən qoparılmışdır) bəzi istisnalıqları çıxmaqla, elə mühitlərdə keçirilir ki, etnik azlıqların nümayəndələri olan erməni və azərbaycanlı abituriyentlərin başqa tələbələrlə ünsiyyət imkanı yoxdur. Eyni görüşdə, etnik azlıqların nümayəndələri belə bir mühitdə hazırlanan zaman onlar arasında münaqişə yaranmasına da diqqət çəkdilər. Bu isə digər tələbələrlə inteqrasiya zamanı daha asan ola bilərdə. Eyni zaman, 1+4 proqramının hədəf qruplarının tərkibinin artırılması da fəal olaraq müzakirə edilir, bu da ki Gürcüstanda yaşayan bütün etnik azlıqların nümayəndələri üçün bənzər həvəsləndirici təkliflərin edilməsini nəzərdə tutur. Operativ səviyyədə dəyişikliklərin lazım olması haqqında xüsusi diqqət sosial tədqiqat və analiz institutu tərəfindən 2019-cu ilin mart ayında keçirilən müzakirədə iştirak edən etnik azlıqların nümayəndələri tərəfindən də dövlət staj proqramına yetirildi, söhbət staj proqramında iştirak edən etnik azlıqların nümayəndələri olan gənclərin ümidsizliyi və staj əsasında dövlət işlərində və yerli bələdiyyələrdə işlə təmin edilmələrinin aşağı göstəricisindən gedirdi. Torpaqların qanuniləşdirilməsi məsələsi ilə bağlı, tədqiqatda etnik azlıqların nümayəndələri tərəfindən diqqət yetirilməsi halında, eyni

sıralamada fiziki və xüsusi hüquqi şəxslərin istifadəsində olan torpaq sahələrinin mülkiyyət hüququnun qəbul edilməsi komisiyasının işləməsinin effektivliyinin qaydaya salınmasını da müzakirə etməliyik. Xüsusilə də, etnik azlıqların kompakt yaşadığı regionlarda müzakirə etməliyik.

*Ümumilikdə açıq cəmiyyət fondunun dəstəyi ilə sosial tədqiqat və analiz institutlarını tərəfindən aparılan tədqiqat göstərdi ki, etnik azlıqların nümayəndələrində Gürcüstan və gürcü cəmiyyətinə qarşı mədəni- siyasi identiklik hissi[2] yüksəkdir. Bu hiss gənc nəsildə müəyyən qədər azalır, baxmayaraq ki, gürcü dilinin bilinməsi səviyyəsi ən yüksək 18-24 yaşlı respodentlərdir (indenksin orta 25 baldan – 20.19). Gürcüstan və gürcü cəmiyyətinə qarşı mədəni- siyasi identiklik hissinin ən aşağı səviyyəsi azərbaycanlı icmasındadır (orta – 3.49, "mən hiss edirəm ki, gürcü cəmiyyətinin tam hüquqlu üzvüyəm" müddəasının orta qiymətləndirilməsi – 4.01), bu icma da gürcü dilinin bilinməməsini başqa etnik azlıqların nümayəndələri ilə müqayisədə ən aktual problem olaraq hesab edir. Etnik azlıqların qrupları Gürcüstanın, hibrid demokratiyası olan dövlət imicini qəbul edirlər. Siyasi məşğulluğa gəldikdə isə, deklorasiyalı şəkildə, etnik azlıqlar qruplarının əksəriyyəti siyasi inkulizyanın tərəfdarıdır. Lakin, onların təxminən üçdə biri siyasətin elitanın ( adi vətəndaşların deyil) işi olması ilə razılaşır. Deklarasiyalılığın üzərində, sorğulananların ancaq dörddə biri özünü siyasi olaraq fəal vətəndaş hesab edir. Aşağı fəallıq səbəbləri olaraq isə, bunlar göstərilir: siyasətə qarşı marağın olmaması, ailə yükü və gürcü dilinin yetərli səviyyədə bilinməməsi.*

*Buna müvafiq olaraq da, etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq imkanlarının artırılması məqsədi ilə, problemlərin idarə edilməsinin birinci mərhələsində dövlətin hansı hədəf qrupunu priorietet etməsi gərəkdiyi aydın olur.*

**Etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq imkanlarının təkmilləşdirilməsi üçün tövsiyələr.**

**İnteqrasiya edilmiş yanaşmanın təqdim edilməsi əhəmiyyətlidir. Bu yanaşma etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq imkanlarının artırılmasına imkan yaradacaq və beləliklə də, qərar qəbul edilməsi prosesində, daha çox iştirak modelinin əsasının qoyulmasına müsbət təsir edəcək. Bu məqsədlə həyata keçirilən fəallıqlar tövsiyə paketlərinə uyğun olaraq təqdim edilmişdir.**

**Tövsiyələr paketi 1:**

***Bu paketin məqsədi etnik azlıqların nümayəndələrinin mülki məşğulluğunu həvəsləndirmək məqsədi ilə, donor təşkilatların və müxtəlif analitik mərkəzlərin, o cümlədən akademik dairələrin nümayəndələrinin fəallaşdırılmasıdır. Bütün maraqlanan tərəflərin öz səylərini kordinasiya etməsi mütləqdir ki, etnik azlıqlarda mülki məşğulluq mədəniyyəti problemləri və mülki məşğulluq istiqamətində cəmiyyətdə mövcud olan nihilist münasibət aradan qaldırılsın.***

**Mülki məşğulluğa dəstək:** Gürcüstanda etnik azlıqların siyasi və mülki məşğulluğuna dəstək mexanizmi olaraq həm hökumət, həm də qeyri hökumət sektorunun nümayəndələri üçün, fəallar və sıravi vətəndaşlar üçün qrant maliyyəsinin, konsultasiyaların və treninqlər sisteminin təklif edilməsini müzakirə etməliyik. Düşünürük ki, bənzər sistemlərin əsasının qoyulması cəmiyyətdə mülki məşğulluq istiqamətində olan nihilist münasibətin

[2] ISSA- tədqiqatında təqdim edilən maddələr 5 ballıq şkala ilə dəyərləndirildi, burada 1 bal " tamamilə razı deyiləm", 3 bal – " o qədər razıyam, nə qədər ki, razı deyiləm", 5 bal – "tamamilə razıyam" deməkdir. Maddələrin qiymətləndirilməsi zamanı 3-dən artıq bal müsbət qiymətləndirmə sütununda, 3-dən az isə mənfi sütunda yerləşdirilir.

aradan qaldırılmasına kömək edəcək. Qeyd edilən tövsiyələr qrupu, insanların iştirak etməyi öz təcrübələri əsasında öyrəndiyini göstərən prinsipə xüsusi diqqət yetirir ki, bu da nəhayət onların mülki mədəniyyətini gücləndirir.

- **Qrantların təklif edilməsi** - Donor təşkilatlar mülki məşğulluq yolu ilə ictimai proseslərdə etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluğunu nəzərdə tutan qrant layihələrinin maliyyələşdirilməsini dəstəkləməlidirlər. Bu baxımdan maariflǝndirmə kompaniyası və mühüm konsultasiya xərclərinin ödənməsinə yönləndirilmiş fəallıqların dəstəklənməsi donor təşkilatların maraq dairəsində olmalıdır. Etnik azlıqların siyasi və mülki məşğulluğu üçün lazım olan fəallıqların həvəsləndirilməsi məqsədi ilə eyni zamanda, müvafiq qrant elanlarının işlənməsi və müsabiqə yolu ilə maliyyələşdirilməsi vacibdir. Qrant maliyyələşdirməsi şəhərin bələdiyyələri və etnik azlıqların nümayəndələrinin interaksiya və əməkdaşlığına imkan yaradacaq layihə və fəallıqların dəstəklənməsinə yönləndirilmiş olmalıdır. Bu gün Gürcüstanda dövlət sektoru tərəfindən təklif edilən kiçik saylı və möhtac etnik azlıqların nümayəndələrinin sosial –iqtisadi və mədəni inteqrasiyası üçün bir neçə mexanizm mövcud olmasına baxmayaraq, etnik azlıqlara daja çox diqqət ayırmaq hədəf proqramları ilə dəstək sistemlərinin təklif edilməsi və onların sonradan effektivliyinin yüksəldilməsinin qayğısına qalmaq lazımdır.
- **Konsultasiya** – Etnik azlıqların siyasi və mülki məşğulluğuna yönəldilmiş fəallıqların müvafiq konsultasiya xidməti ilə dəstəklənməsi də vacibdir. Bunları isə donor təşkilatların dəstəyi ilə, qeyri hökumət təşkilatları, analitik mərkəzlər və universitet cəmiyyəti təmin edir. Konsultasiya xidmətinin xərclərinin qarşılanması da etnik azlıqların siyasi və mülki məşğulluq imkanlarının genişləndirilməsinə əhəmiyyətli dərəcədə töhvə verəcək.
- **Treninqlər** – etnik azlıqların siyasi və mülki məşğulluq bacarıqlarının formalaşdırılması və artırılması baxımından, həm yerli hakimiyyət üçün, həm də qeyri hökümət təşkilatlarının nümayəndələri üçün, etnik azlıqların nümayəndələri üçün və sıravi vətəndaşlar üçün treninq və seminarların keçirilməsi mütləqdir. Sözü gedən, ilk növbədə, dövlət sektorunun üst və orta səviyyəsinin nümayəndələri, şəhərin müxtəlif xidmət rəhbərləri, şəhərin seçim vəzifəli şəxsləri və etnik azlıqların qeyri hökumət sektorundakı liderləri üçün nəzərdə tutulmuşdur. Mülki məşğullu mövzusunda treninqlərin keçirilməsinin məqsədi, qərar qəbul etmənin inklüziv modeli haqqında uyğun məlumatların verilməsidir. Bu cür treninqlərin keçirilməsi xüsusilə hakimiyyət dairələri üçün əhəmiyyətlidir. Bənzər formatlı treninqlər Gürcüstanda mülkü məşğulluğun artırılmasına xüsusilə kömək edəcək. Sosial tədqiqat və analiz institutu tərəfindən aparılan tədqiqatın nəticələri ilə tanış olmaq məqsədilə 2019-cu ilin mart ayında keçirilən işçi görüşləri zamanı qeydə alınan etnik azlıqların nümayəndələri olan gənclərdə yayılan tənqidi münasibətə görə, bu gün etnik azlıqların nümayəndələri üçün nəzərdə tutulan dövlət staj proqramlarının daha da qaydaya salınması çox mühümdür. Bu staj proqramının detallı yazılması və məzmun- metodoloji baxımdan düzəldilməsi alınan bilik və təcrübənin proqramın başa çatdırılmasından sonra proqram iştirakçısına işlə təmin edilmək üçün daha çox imkan verməsini nəzərdə tutur. Eyni zamanda, etnik azlıqlarım uğurlu iştirakçılarının dövlət sektorunda- minimum yerli bələdiyyə orqanlarında işlə təmin edilməsi imkanlarının formalaşdırılması da müzakirə edilir.

**Tövsiyələr paketi 2**

***Bu paketin məqsədi, etnik azlıqların mülki məşğulluğunun real təcrübəsinin mövcud hüquqi çərçivə ilə əlaqələndirilməsi məqsədi ilə, müvafiq tövsiyələrin təklif edilməsidir. Təqdim edilən tövsiyələr paketi mülki***

***məşğulluqda gedən institutsional mühitin yaxşılaşdırılması və qərarların qəbul edilməsi prosesində xarici fəalların qoşulmasına dəstək olunmasıdır. Tövsiyələrin böyük bir qismi problemlərin həll edilmə mexanizmlərini yuxarıdan, hökumətin institutsional müdaxiləsi səviyyəsində nəzərdə tutur.***

- **Hökumət qurumlarında ictimai məşğulluq institutional hücrələrinin əsasının qoyulması və müvafiq qiymətləndirmə vasitələrinin yaradılması** – hökumət qurumları həm milli, həm də yerli səviyyədə ictimai məşğulluğa institutsional dəstək məqsədi ilə, xarici fəallara ictimai məşğulluq üçün məsuliyyət daşıyacaq administrative vahidlərin yaradılmasını təklif etməlidir ( bu departament, bölüm və ya xidmət olaraq həyata keçirilə bilər.). "Yaxşı idarəetmənin" ən yaxşı təcrübəsinin nəzərə alınması ilə yerli bələdiyyələr "daha yaxşı şəhər idarəetmə təşəbbüsləri"-nin əsasını qoymalıdırlar , bu da ictimai məşğulluğa təcrübi dəstək sistemlərinin yaradılması ilə birlikdə (ictimai məşğulluq göstəriciləri – indiqatorları əsasında) permanentik rejimdə hökumət qurumlarının qiymətləndirilməsini əhatə edir ( Saha, 2009). Etnik azlıqların nümayəndələrinin iştirak bu qiymətləndirmənin ən vacib komponentlərindən biri olacaq. Eyni zamanda, qiymətləndirmənin adekvat sistemi üzərində də razılaşma əldə etmək əhəmiyyətlidir. Bu eyni zamanda, etnik azlıqların nümayəndələrinin həm iştirakı əsasında həyata keçirilə bilər və onlara konkret meyarların qiymətləndirilməsi göstəricilərinin təklif edilməsi imkanını verəcək.
- **Vətəndaş bərabərliyi və inteqrasiyanın dövlət strategiyalarının və 2015-2020-ci illər fəaliyyət planının monitorinqi və qiymətləndirilməsi prosesində etnik azlıqların nümayəndələrinin özlərinin iştirak etməsi imkanlarının genişləndirilməsi.** Baxmayaraq ki, təqdim edilən siyasi sənəddə əsas diqqət etnik azlıqların siyasi və mülki məşğulluq məsələsinə yetirilib, qeyd edilən tövsiyyələrin təcrübədə həyata keçirilməsi bütün növ azlıqların problemlərinin həll edilməsi məqsədilə strategiya və fəaliyyət planı ilə götürülən öhdəliklərin daha effektiv şəkildə həyata keçirilməsinə kömək edir. Onu da nəzərə almaq lazımdır ki, birinci mərhələdə fəaliyyət planında qeydə alınan nəticələrin ( burada həm başlanğıc, həm orta həm də son nəticələr nəzərdə tutulur) hədəf göstəricilərinin ölçüsünə konkret göstəricilərlə birlikdə baxılması və yeni göstəricilərin əlavə edilməsi də mümkündür. Eyni zamanda onların monitorinqi məqsədi ilə, ayrıca müstəqil, etnik azlıqların nümayəndələri ilə komplektləşdirilmiş qruplar tərəfindən icra edilməsi keyfiyyətinə nəzarət də mümkündür. Bənzər həm iştirak modeli vətəndaş bərabərliyi və inteqrasiya dövlət strategiyası və 2015-2020-ci illərdə fəaliyyət planının icra edilməsinin monitorinqi və qiymətləndirilməsi prosesində bu gün xalq müdafiyəçisi ofisi yanında mövcud olan etnik azlıqlar komitəsi vasitəsilə həyata keçirilir və bu institut monitorinq və qiymətləndirmə funksiyaları ilə təchiz edilmişdir. Lakin, komitənin özünün tərkibinin statikliyi və az təmsil edilməsi, yəni cəmi bir neçə qeyri hökumət təşkilatının iştirakı ilə meydana gəlir – tənqidi analizi və qiymətləndirmə baxımından bir sıra problemlər yaradır. Buna müvafiq olaraq da, komitənin tərkibinə etnik azlıqların nümayəndələrinin qoşulması üçün imkanların genişləndirilməsi ( həm say, həm coğrafi, eləcə də gender baxımından) tolerantlıq və mülki inteqrasiya milli strategiyasının icra edilməsinə monitorinqin həyata keçirilməsi üçün faydalı olacaq. Bununla yanaşı, etnik azlıqların özlərinin təşkilatları üçün advokatlaşdırma və monitorinq istiqamətində müvafiq treninqlərin keçirilməsi olduqca əhəmiyyətlidir ki, onlar strateji və fəaliyyət planlarının monitorinqini və qiymətləndirilməsini özləri müstəqil olaraq həyata keçirsinlər. Bu hökumət sənədlərində qeydə alınan təşəbbüslərin və təkliflərin yerinə yetirilməsi keyfiyyətinə nəzarət üçün ən mühüm mexanizm olaraq istifadə edilə bilər.
- **"İcma planlaşdırmasının hər şeyi əhatə edən standartlarının əsasının qoyulması** – "İcma planlaşdırmasının hər şeyi əhatə edən standartlarını" sistemi şəhər quruculuğunun müasir və ən

əhəmiyyətli mexanizmidir, bu mexanizm cəmiyyətin, o cümlədən etnik azlıqların nümayəndələrinin iştirakı şərtlərində, şəhər quruculuğu və daimi inkişaf prosesinin idarə edilməsi üçün (AADNC, 2004) bələdçi yaradır. İctimai planlaşdırmanın bu, nisbətən innovativ yanaşmasında həlledici rol kiçik, maraqlanan qruplar əvəzinə geniş ictimaiyyətə verilir. “İcma planlaşdırmasının hər şeyi əhatə edən standartları” yerli icmaya öz ictimai məkan baxışını müəyyən etmək imkanı verir. Bənzər yanaşma konkret hökumət proqramları və layihələrinin planlaşdırılması, həyata keçirilməsi və qiymətləndirilməsi prosesi zamanı vətəndaşların həm iştirak səviyyəsinin artırılması ilə bu prosesi daha da inkluziv edir. Bu standartların istifadə edilməsi şəraitində həyata keçirilən fəallıqlar, cəmiyyətin, bu məqamda isə etnik azlıqların nümayəndələrinin ictimai məkanın sonrakı inkişafı üçün məsuliyyət daşımalarının ən yaxşı zəmanətidir. Geniş mənada desək, cəmiyyətin hər bir üzvü yaşından, gender, etnik və ya başqa xüsusiyyətlərinə görə, fərqlənməsindən asılı olmayaraq cəmiyyətin ehtiyac və prioritetlərini müəyyən edə bilər, təkliflər irəli sürə bilər və onların idarə edilməsində iştirak edə bilər. Ən əsası isə, inkişaf üçün özünün və unikal prespektivləri təqdim edə bilər. Onu da nəzərə almaq lazımdır ki, dil barierinin aradan qaldırılmasına bu prosesin foto materiallarla, elektron oyunlarla və başqa innovativ üsullarla idarə edilməsi şərait yarada bilər. Baxmayaraq ki, bu gün Kvemo Kartli və Kaxetidə dövlət nümayəndəsinin ofislərində öhdəlikləri yerli səviyyədə inteqrasiya ilə bağlı məsələlər üzərində işləmək olan etnik azlıqlarla komplektləşdirilmiş konsultasiya komitələri fəaliyyət göstərir, müxtəlif mütəxəssislərin fikrincə onların effektivliyi kifayət qədər aşağı səviyyədədir ( Sordia, G. Svanişvili, A. Losaberidze, və başqaları). Məhz buna görə də, icmanın planlaşdırma və yerli cəmiyyətin maraqlarının maksimum şəkildə nəzərə alınması məqsədi ilə bu istitutlardan nisbətən daha effektiv olaraq işlənməsi mütləqdir ki, bu da ən yaxşı təcrübələrlə tanış olmağa, yerlərə səfərlərə, qubernator institutunun bu məsələlərə qarşı həssaslığının və dəstəyinin artırılmasına yönləndirilmiş olacaq.

- **“Açıq idarəetmə əməkdaşlığı (OGP)” –nın təşəbbüsü çərçivəsində, informasiya azadlığının inkişaf etdirilməsi institutu (IDFI) tərəfindən təklif edilən tövsiyələrin yerli səviyyədə əsasının qoyulması** – tövsiyələr sıralaması elektron petisiyalar və konsultasiya platformaları sisteminin yerli bələdiyyələr səviyyəsində əsasının qoyulmasını əhatə edir ( OGP, 2014). Bu sistem vasitəsi ilə hakimiyyət orqanları nümayəndələrinin özləri qərar qəbul edilməsi prosesində maraqlanan qrupların, o cümlədən etnik azlıqların nümayəndələrinin iştirak etməsi üçün daha çox imkanlar yaradırlar, onlara öz təşəbbüslərini təqdim etmək və lazım olan miqdarda elektron imzaların toplanacağı təqdirdə hökumətin gündəliyinə çıxarmaq üçün zəmanət verirlər[3]. İnformasiya azadlığının inkişaf etdirilməsi institutunun bu təcrübəsi milli səviyyədə qərarlara yönəldilmişdir, ancaq, ictimai proseslərdə iştiraka növbəti dəstək üçün təşəbbüslərin birbaşa yerli bələdiyyələr səviyyəsində əsasının qoyulması və dəstəklənməsi mütləq olur. Analoji olaraq, yerli bələdiyyələr səviyyəsində ictimai konsultasiya platformaları sisteminin də əsası qoyulmalıdır. Bu sistem hökumət və qeyri hökumət sektorlarının nümayəndələri arasında əməkdaşlıq rejimində əlaqələrin yaradılmasını təmin edəcək.
- **Məlumatların proaktiv rejimdə əlçatan olmasının təmin edilməsi** – qeyd edilən tövsiyyənin informasiya azadlığının inkişaf etdirilməsi institutunun (IDFI) təklifi ilə Gürcüstanda mərkəzi hakimiyyət səviyyəsində fəal şəkildə əsası qoyulur ( OGP, 2014). Bunların yerli bələdiyyələr səviyyəsində həyata keçirilməsi də mütləqdir. Eyni zamanda, yerli bələdiyyələr tərəfindən istifadə edilən keyfiyyətin idarə edilməsi standartları məlumatın proaktiv rejimdə yayılmasının qiymətləndirilməsi üçün konkret göstəriciləri əhatə etməlidir ki, bu da öz növbəsində onların qorunması üçün zəmanət yaradır. Qeyd edilən tövsiyyənin həyata keçiriləcəyi təqdirdə, hakimiyyət və xarici fəallar arasında hal- hazırda mövcud

[3] İnformasiya azadlığının inkişafı institutu tərəfindən təklif edilən 10 minlik minimum hal-hazırda 5 min elektron imzaya qədər azaldılıb).

olan, əsasən də məhz informasiya qıtlığından qaynaqlanan interaksiya problemləri həll edilər. Beynəlxalq donor təşkilatların hazır olması şəraitində, açıq və şəffaf hakimiyyəti dəstəkləməklə, bənzər tövsiyyələrin həyata keçirilməsi imkanı kifayət qədər real görünür. Elə buradaca onu da vurğulamaq lazımdır ki, etnik azlıqlarla ünsiyyət kanallarının adekvat şəkildə seçilməsi və fəal istifadə edilməsi məsələsi də əhəmiyyətlidir. Xüsusilə, qeyd etmək lazımdır ki, tədqiqat prosesində media vasitələrinə qarşı etimad respodentlərin müsbət qiymətləndirməsi sütununda yer aldı və etnik azlıqların qarşısında duran problemlərin həll edilməsi mexanizmlərindən biri olaraq medianın gündəliyinə etnik azlıqlar məsələsinin salınması səsləndirildi. Sosial tədqiqat və analiz institutu tərəfindən aparılan tədqiqatın nəticələri ilə tanış olmaq məqsədilə 2019-cu ilin mart ayında keçirilən işçi görüşlərində iştirak edən etnik azlıqların nümayəndələri, eləcə də müxtəlif beynəlxalq və yerli qeyri hökumət təşkilatlarının nümayəndələri qeyd edirdilər ki, mediyaya qarşı etimaq, yerlərdə, etnik azlıqların kompakt olaraq məskunlaşdığı regionlarda xüsusilə yüksəkdir. Sözügedən reallıqdan qaynaqlanaraq, yerli regional media vasitələrinə dəstək olunması etnik azlıqlar üçün gürcü informasiya məkanın əlçatan olması və etnik azlıqlarda gürcü cəmiyyətinə qarşı mədəni- siyasi eynilik hissinin yüksəldilməsi istiqamətində ən effektiv mexanizmlərdən biri kimi müəyyən edilmişdir.

- **İctimai proseslərdə iştirak etmək baxımından mövcud olan neqativ münasibətin dəyişdirilməsi** – mülki məşğulluğun institutional mühitinin yaxşılaşdırılması və qərarların qəbul edilməsi prosesinə xarici fəalların cəlb edilməsi məqsədi ilə, ictimai proseslərdə iştirak etməyə qarşı etnik azlıqların nümayəndələri arasında mövcud olan neqativ münasibəti dəyişdirmək və hakimiyyət dairələri nümayəndələri üçün xarici “göz” üstünlüyünün tanış edilməsi olduqca əhəmiyyətlidir. Xüsusilə də, mövcud ictimai problemlərin həll edilməsi üçün xarici fəalların təkliflərinin mühüm vasitələr ola biləcəyini doğru şəkildə dərk etmək mütləqdir. Yerli icma nümayəndələri problemli məsələlərin optimal şəkildə həll edilməsi üçün daha çox məlumata sahib ola bilərlər və buna müvafiq olaraq da, onların daha yaxşı təklifləri ola bilər. İctimai proseslərdə iştirak etmək qəbul edilən qərarlar üzərində birgə məsuliyyət daşımağı və münaqişəli rejimlərdə məsələnin müzakirə edilməsini təmin edir. İctimai proseslərdə iştirak etmək həmçinin, alınan qərarların ictimaiyyətin gözündə daha legitim olmasını təmin edir ki, bu da öz növbəsində vətəndaşların etiraz imkanlarını azaldır. İctimai proseslərdə iştirak etmək vasitəsilə, xarici və yerli fəallar, o cümlədən sıravi vətəndaşlar hiss edirlər ki, onların mövqeləri əhəmiyyətli və dəyərlidir. Bu üstünlüklərlə tanış olmaq Gürcüstanda ictimai proseslərdə iştirak etmək imkanlarının gücləndirilməsinə əhəmiyyətli dərəcədə kömək edəcək. Lakin, tövsiyyənin effektiv olaraq yerinə yetirilməsi, eyni zamanda bu gün etnik azlıqlar arasında olan maneçilik törədici amillərin aradan qaldırılmasından və zəiflədilməsindən asılıdır. Respodentlərin fikrincə bu amillər onların siyasi fəallıqlarda ( məsələn, yerli bələdiyyə görüşlərində, siyasi partiyaya üzv olmaqda, aksialarda iştiraka, seçki kompaniyalarında iştirak etməyə və s.) aktiv iştirak etmələrinə mane olur. Tədqiqat zamanı məlum oldu ki, siyasi proseslərdə iştirak etmək üçün əsas maneçilik törədən amillər bunlardır: siyasətə qarşı marağın olmaması (42.7%), ailə işlərində fəal olaraq iştirak etmək (28.3%), gürcü dilinin lazımi səviyyədə bilinməməsi (26.2%). Bu maneçilik törədən amillərin etnik azlıqların qrupları arasında bölünməsi isə maraqlıdır: “siyasətə qarşı maraq olmaması” amili kiçik urban etnoslarında xüsusi ilə yüksəkdir (56%). Bu halda isə, siyasi proseslərdə iştirak etmək üçün gürcü dilinin bilinməməsi barieri azərbaycanlı icmanın sorğulanan respodentlərinin əksəriyyəti tərəfindən (66.9%) problem kimi sadalanır. Bundan başqa, planlaşdırılan hadisələr haqqında məlumatın olmaması azərbaycanlı icmanın respodentlərinin 42.3 faizi üçün maneçilik törədən amildir. Ənənələrə və dini inanca gəldikdə isə, siyasi proseslərdə iştirak etməyə barier olaraq bu amillər kist icması istisna olmaqla demək olar ki, bütün etnik qruplarda nisbətən az əhəmiyyətlidir. Kist icmasında dini inancı respodentlərin 16.9 faizi, ənənələri isə 13 faizi barier olaraq sadalamışdır. Gender baxımından maraqlıdır

ki, hər iki qrupda demək olarak ki, siyasi proseslərdə iştirak etməyə mane olan şərtlər baxımından eyni tendensialar nəzərə çarpır (ISSA, 2019, diaqram N42). Buna müvafiq olaraq da, etnik azlıqların nümayəndələrinin siyasi fəallığına mane olan amillərin nəzərə alınması və ölçü götürülməsi həm mərkəzi hakimiyyətin, eləcə də beynəlxalq donor təşkilatların hədəfi olmalıdır.

- **Məsələnin siyasiləşdirilməsinə deyil, problemlərin həll edilməsi mexanizmləri üzərində fokuşlaşmaq** – mülki məşğulluq institutsional mühitinin yaxşılaşdırılması və qərarların qəbul edilməsi prosesində xarici fəalların qoşulmasına dəstək olmaq məqsədi ilə, hakimiyyətin özünün (həm mərkəzi, həm də yerli hakimiyyət) məsələnin siyasi rəqabət çərçivəsində müzakirə edilməsindən qaçınması çox əhəmiyyətlidir. Bu da etnik azlıqların nümayəndələri ilə münasibətdə əksər hallarda, separatism təhlükəsi ilə eyniləşdirilir. Bənzər baxır bucağı məsələ ilə maraqlanan xarici fəallarının mövqeləri ilə tanış olmaq və bölüşmək üçün daha çox perspektiv yaradacaq. Hakimiyyət üçün bu və ya digər xarici fəalın hansı siyasi qruplaşma ilə asossiasiya edilməsi üzərində müzakirə aparmaq deyil, cəmiyyətdə mövcud olan problemin həll edilməsi üçün etnik azlıqların nümayəndələri tərəfindən hansı təkliflərin təqdim edilmiş olması mühüm olmalıdır. Problem üzərində müzakirə aparmaq siyasətinin dəyişdirilməsinə istiqamətləndirilmiş (policy oriented change) qeyri siyasi rejimə keçid məsuliyyəti qərbyönlü təcrübə ilə məhz hakimiyyətin üzərinə düşür. Eyni zamanda, ictimai problemlərin həll edilməsi məsələsinə diqqət yetirilməsi xarici fəallara kömək edər və əhəmiyyətli dərəcədə həvəsləndirər ki, onların hakimiyyətlə daha çox əməkdaşlıqları olar, bu da öz növbəsində prosesə daha çox konstruktivlik qazandırar. Ümumi yekunda bu etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq imkanlarını artırar və qərarların qəbul edilməsi prosesini daha çox inklüziv edər. Onu da nəzərə almaq lazımdır ki, bu təkcə xarici fəalları həvəsləndirmir, eyni zamanda etnik azlıqların hakimiyyətə qarşı olan etimadını yüksəldir, bu baxımdan hakimiyyət artıq şəxsin/ xarici fəalın və ya rəqibin siyasi baxışlarının nə cür olmasına baxmayaraq problemlərin həll edilməsinə yönəlmişdir.
- **Elektron texnologiyaların elektron iştirak üçün iki dilli xidmət rejimində fəal şəkildə istifadə edilməsi** – qeyd edilən tövsiyyə etnik azlıqların nümayəndələrinin siyasi və mülki məşğulluq imkanlarının artırılması məqsədi ilə geoinformatik və kompüter mediasiyası sistemləri kimi texnologiyalardan istifadə edilməsini nəzərdə tutur. Sıravi vətəndaşlara eləcə də istənilən maraqlanan fəala elektron məkanda iki dilli ünsiyyət üçün daha çox imkan verilməlidir və bu hakimiyyət üçün xüsusilə də yerli səviyyədə standart iş rejiminə çevrilməlidir. Elektron qoşulma sisteminə keçid ictimai məşğulluq prosesinin aparılmasını əhəmiyyətli dərəcədə sadələşdirər və bu eyni zamanda, birbaşa rejimdə həm iştirakçılarla bağlı olan xərcləri nisbətən ucuzlaşdıracaq.

  Hakimiyyət tərəfindən bənzər sistemlərin təklif edilməsi xarici fəalların, o cümlədən fəalların və sıravi vətəndaşların ictimai həyata qoşulmasına kifayət qədər təkan verəcək. Elektron ünsiyyət vasitələrinin mülki məşğulluq üçün istifadə edilməsi vətəndaşlara öz mövqelərini daha çox nümayiş etdirmək imkanı verəcək. Vətəndaşa yönəlmiş elektron iştirakın, elektron xidmətlərin verilməsi və elektron administrasiya mexanizmlərinin əsasının qoyulması ilə bağlı maliyyə axtarılması baxımından, hakimiyyətin dəstək verici "yaxşı idarəetmə" mexanizmlərindən fəal olaraq istifadə etməsi mütləqdir. Bu mexanizmləri Birləşmiş Millətlər Təşkilatı və Dünya bankı maraqlanan dövlətlərə təklif edir[4]. Lakin, bu baxımdan bir çox beynəlxalq və yerli qeyri hökumət təşkilatlarının ( məsələn, İnsan haqlarının öyrənilməsi və monitorinqi mərkəzi (EMC)) hakimiyyətə təklif etdiyi ən başlıca tələb bu "milli azlıqların qorunması haqqında" Avropa çərçivəsi konvensiyası ilə Gürcüstan tərəfindən 2006-cı ildən götürülən müsbət öhdəliklərin yerinə yetirilməsidir. Bu öhdəliyə əsasən, etnik azlıqların nümayəndələrinin ənənəvi olaraq və ya çox sayda yaşadığı inzibati vahidlərdə dövlət orqanları inzibati orqanda və etnik azlıqların

[4] Broad, R.. (2007). 'Knowledge Management': A Case Study of the World Bank's Research Department. *Development in Practice*, *17*(4/5), 700–708. Retrieved from http://www.jstor.org/stable/25548272

nümayəndələri olan şəxslər arasında, o cümlədən elektron sistemlərdə ünsiyyət zamanı maksimum şəkildə etnik azlıqların dillərinin istifadə edilməsinin qayğısına qalmalıdırlar. Bu baxımdan, ümumi idarə sistemində tərcüməçi ilə tənim edilmənin yaxşı təcrübəsi etnik azlıqların kompakt yaşadığı regionlarda xüsusilə əhəmiyyətli amildir.

**Tövsiyyələr paketi 3**

***Qeyd edilən tövsiyyələr paketinin əsas məqsədi dövlət siyasətinin qərarlarına etnik azlıqların nümayəndələri olan vətəndaş fəalların təsirinin artırılması məqsədi ilə tövsiyyələr təqdim etməkdir. Tövsiyyələrin böyük hissəsi mülki məşğulluq qarşısında olan problemlərinin həll edilməsi mexanizmlərinə aşağıdan, etnik azlıqların nümayəndələrinin özlərinin advokatlaşdırılması imkanlarından baxır.***

- **Siyasi advokatlaşdırma kompaniyasının həyata keçirilməsi prosesində daha çox dəlillərdən istifadə edilməsi** – önləmə mexanizmləri olaraq Gürcüstanda da OSCE/ODIHR aprobirasiyalı təcrübənin onlayn platformalar şəklində əsasının qoyulması əhəmiyyətli məsələdir. Burada diskriminasiya, hüquq pozuntuları və ya nifrət dilindən istifadə edilməsi kimi hallar sənədləşdiriləcəkdir. Qeyd edilən tövsiyyə eyni zamanda advokatlaşdırma kompaniyasında dəlillərə əsaslanan təkliflərin əhəmiyyətinə xüsusi diqqət yetirir. Etnik azlıqların nümayəndələrinin siyasi və mülki iştirakı və cəlb edilməsi imkanlarının gücləndirilməsi baxımından, arqumentli və mütəxəssis səviyyəsində biliyə əsaslanan müzakirənin həlledici əhəmiyyəti var. Bu hakimiyyətin əlindən qərarların qəbul edilməsində etnik azlıqların təcrid edilməsi imkanını alır və ictimai müzakirəni daha işgüzar, qeyri siyasi məzmuna daşıyır. Siyasi diskurs konkret ictimai problemlərin həll edilməsi üzərində müzakirə aparılması baxımından həyata keçiriləcəkdir və prosesin siyasiləşdirilməsi nisbətən az baş verəcək. Bu baxımdan dəlillər üçün lazım olan bütün daxili və xarici resurslardan fəal şəkildə istifadə etmək vacibdir: etnik azlıqların nümayəndələri əsaslı dəlillərlə təqdim etmək məqsədi ilə yerli və beynəlxalq tədqiqatların nəticələrindən istifadə etməli və problemlərin həll edilməsi üçün ən yaxşı təcrübələri nəzərə almalıdırlar. Onlar tərəfindən aparılan advokatlaşdırma kompaniyasının konkret siyasi sənədlərə əsaslanması vacibdir, burada onların mövqelərini dəstəkləyəcək arqumentlər daha dəqiqliklə yazılmış olacaq. Bu baxımdan, xüsusi diqqət siyasi sənəddə əlavə şəklində təqdim edilmiş ən yaxşı təcrübələrə yetirilməlidir.
- **Siyasi advokatlaşdırma prosesinə qoşulan fəalların quruluş, strategiya və arqumentasiya baxımından müxtəlifləşdirilməsi** – geniş yayılmış bir fikrə əsasən, siyasi advokatlaşdırma qrupunun tərkibi nə qədər rəngarəng və advokatlaşdırma strategiyası nə qədər çoxşaxəli olarsa, siyasi advokatlaşdırma prosesinin uğurla başa çatdırılması imkanı da o qədər yüksək olar (Sabatier, Jenkins-Smith, 1993). Məhz buna görə də siyasi advokatlaşdırma prosesinə qoşulan qruplar kompaniyada iştirak edən fəalların tərkibinin və strategiyalarının rəngarəngliyinin artırılmasına diqqət yetirməli, öz arqumentlərinə daha çox inandırıcılıq qazandırmaq üçün mümkün olan bütün daxili və xarici resurslardan istifadə etməlidirlər. Advokatlaşdırma kompaniyasında media kompaniyası, rekomandasiya vermək, lobbiçilik və vətəndaş fəallığı kimi strategiyaların qarşılıqlı mübadiləsi və paralel rejimdə istifadə edilməsi etnik azlıqların nümayəndələri olan advokatlaşdırma qruplarında arzu edilən dəyişikliklərə nail olmaq üçün böyük dəstək göstərəcək.
- **Siyasətin advokatlaşdırılması prosesinin ardıcıl olaraq planlaşdırılması –** tədqiqatda iştirak edən respodentlərin verdiyi cavablar bizi əmin edir ki, onların siyasi advokatlaşdırılma imkanlarının inkişaf etdirilməsinə ehtiyacları var. Hətta, onlar bu sahədə informasiya və müvafiq bilik və bacarıqlar baxımından ciddi qıtlıq yaşayırlar. Məsələn, tədqiqatda iştirak edən respodentlərin 83.6%-i yerli

bələdiyyələr tərəfindən təşkil edilmiş heç bir tədbirdə iştirak etməyib. Respodentlərin 7.2 faizi iştirak etdiyini xatırlamır. Çox kiçik sayda tədqiqat iştirakçısı isə büdcə planlaşdırılmasında (0.7 %), munisipolitetin inkişaf strategiyasının işlənməsində (1.3%), şəhərdə/ munisipolitetdə keçiriləsi müxtəlif fəallıqların planlaşdırılmasında (2.4%) və ya şəhərin/kəndin prioritetlərinin müəyyən edilməsində (3.6%) iştirak edib (( ISSA, 2019, Diaqram N60). Bu məqsədlə, yaxşı olar ki, etnik azlıqların nümayəndələri advokatlaşdırma kompaniyasının planlaşdırılması üçün yaradılan müxtəlif bələdçilərdən istifadə etsinlər. Belə ki, məsələn, "ölkədə transformirlər olaraq siyasi advokatlaşdırma bələdçisi" (2012) bizə siyasi advokatlaşdırma kompaniyasının necə həyata keçirilməsi ilə bağlı ətraflı şəkildə yazılıb işlənmiş təlimatlar təqdim edir. Burada həmçinin advokatlaşdırma qruplarının bu prosesdə dəf etməli olduğu ön maneələr də göstərilmişdir. Bənzər məzmunlu bələdçilər bu mərhələdə spontan şəkildə planlaşdırılan kompaniya ilə seçilən siyasi advokatlaşdırma ilə məşğul olan xarici fəallara advokatlaşdırma prosesinin daha effektiv formada idarə edilməsində böyük yardımçı olacaqdır. Yaxşı planlaşdırılmış və öncədən yazılmış kompaniya, dövlət siyasətinin qəbul edilən qərarlara vətəndaş fəallarının təsir imkanlarını əhəmiyyətli dərəcədə artırır.

**Aşağıda etnik azlıqların nümayəndələrinin siyasi və vətəndaş inteqrasiyasının beynəlxalq təcrübələr əsasında mövcud olan ən yaxşı praktikaları təqdim edilib. Bu praktikalar fəal şəkildə istifadə edilərsə, Gürcüstan daha effektiv olaraq etnik azlıqların inteqrasiya göstəricilərini yüksəldə bilər. Onu da qeyd etmək vacibdir ki, etnik azlıqların inteqrasiyası baxımından milli azlıqların qorunması haqqında çərçivə konvensiyasının konsultasiya komitəsinin tövsiyələrinin dəstəklənməsi və büdcə prioritetlərinin müəyyənləşdirilməsi zamanı onların nəzərə alınması mühümdür.**

**Əlavə # 1 – Etnik azlıqların nümayəndələrinin siyasi və mülki inteqrasiyası üçün beynəlxalq təcrübə - ən yaxşı praktikalar**

| **Etnik azlıqların nümayəndələrinin siyasi və mülki inteqrasiyasına kömək edən mexanizmlər** | **İzah** |
|---|---|
| **Parlament orqanında kvotalar** | Azlıqların, o cümlədən etnik azlıqların siyasi təmsilçiliyinin təmin edilməsi məqsədilə kvotlaşdırmadan fəal şəkildə istifadə edilir və bərabər imkanların verilməsi və siyasi gücün balanslaşdırılması mexanizmi olaraq dəyərləndirilir. Tədqiqatlar göstərir ki, çox saylı həm milli, həm də yerli səviyyəli qanunverici orqanlarda təmsil edilmək etnik azlıqların qarşısında duran sosial iqtisadi problemlərin həll edilməsi məqsədi ilə büdcə prioritetlərinin bölünməsinə müsbət təsir göstərir. Bunun istifadə edildiyi ölkələr sırasında misal göstərmək olar: Belçika, Rumuniya, Xorvatiya, Sloveniya. Keçmişdə isə Fələstində, Zimbabvedə və başqa ölkələrdə də istifadə edilirdi. |
| **Etnik işarə ilə siyasi partiyaların formalaşdırılması təcrübəsi** | Bir sıra ölkələrdə siyasi partiyaların formalaşdırılması etnik mənsubiyyətə əsasən həyata keçirilir. Baxmayaraq ki, etnik azlıqların özlərinin problemlərinə yönlənməsinə əsasən qeyri etnik mənsubiyyətlə fəaliyyət göstərən siyasi partiyaları fərqləndirirlər, bu halda dominant olmayan etnik qrupların siyasi partiyalar şəklində fəaliyyət göstərməsi nəzərdə tutulur. Bu təcrübənin istifadə edildiyi ölkələr:Hindistan, Birma, Pakistan, Keniya, Nigeria, Efiopia, Bolqarıstan, Rumuniya, Slovekiya, Finlandiya, Monteneqro, Albaniya, Bosnia və Hersoqovine və s. |
| **Majoritar seçki sistemi – qanunverici orqanda etnik azlıqların nümayəndələrinin təmsil edilməsi məqsədilə** | Etnik azlıqların siyasi təmsilçiliyinin təmin edilməsi alternativ səsvermə sistemi, etnik azlıqların kvotlaşdırılmış yerlərinin bölünməsi və qarışıq seçki sistemi kimi sistemlərlə müqayisədə qeyd edilən mexanizm nisbətən daha effektiv hesab edilir və etnik azlıqların siyasi təmsilçiliyinin fəallaşdırılması məqsədi ilə istifadə edilir. Lakin, etnik azlıqların nümayəndələrinin siyasi fəallığını bu mexanizmin istifadə edilməsi üçün şərt kimi qəbul edir. Bu təcrübənin istifadə edildiyi ölkələr: Yeni Zellandiya, Amerika Birləşmiş Ştatları, Belçika, Libia, Rusiya, Sloveniya, Zimbabve və s. |
| **Alternativ səsvermə sistemi** | Seçicilər tərəfindən preferensiyalara əsasən bir neçə namizədin irəli sürülməsinə əsaslanan və ikinci tur olmadan mütləq çoxluq əldə edən namizədin müəyyən edilməsi üçün ən az preferensiyası olan namizədin sıradan çıxarılması hesabına həyata keçirilən səsvermə qaydası, etnik olaraq bipolyar və münaqişəli cəmiyyətlərdə etnik azlıqların siyasi təmsilçiliyinin zəmanətçisi hesab edilirdi. Lakin, mövcud olan təcrübələr üzərində müşahidə aparmaqla daha az effektiv mexanizm sayılır. Bu təcrübənin istifadə edildiyi ölkələr: Fiji, Cənubi Afrika Respublikası, Bosniya və Hersoqovina post-münaqişə dövründə. |
| **Etnik olaraq qeyri dominan olan partiyalarda etnik azlıqların partiya rekrutlaşması.** | Qeyd edilən mexanizmlərin həyata keçirilməsinin bir sıra formaları mövcuddur və etnik azlıqlara qarşı olan münasibətlərdən asılıdır. Bu da rekrutlaşdırma səviyyəsində həm etnik azlıqların nümayəndələrinin, həm də onların problemlərinin öz gündəliyində fəal şəkildə reprezentativliyini nəzərdə tuta bilər. |
| **Dövlət sektoru administrasiyasında etnik azlıqların təmsilçiliyi və dövlət xidmətlərinin əlçatanlığının təmin edilməsi.** | Həm milli, həm də yerli səviyyədə, dövlət idarə etməsinin etnik mənsubiyyətə görə təmsil edilməsi onların vasitəsilə dövlət xidmətlərinin təmin edilməsi ilə əlaqəlidir. Bununla yanaşı, etnik azlıqların nümayəndələrinin dövlət xidmətlərindən faydalanmaq üçün tam imkanlara sahib olması çox əhəmiyyətlidir. Bu Avropa ittifaqı miqyasında dövlət sektoru xidmətlərinin təkmilləşdirilməsi prosesində bütün qrupların, o cümlədən etnik azlıqların müdaxiləsi ilə təmin edilmişdir. |
| **Konsultasiya və məsləhət şuralarının yerli səviyyədə və iştirak təcrübələrinin əsasının qoyulması** | Avropa ittifaqı təcrübəsi ilə, yerli səviyyədə etnik azlıqların cəlb edilməsinin effektiv mexanizmi olaraq və onların problemlərinin artikulasiyası və həll edilməsinin effektiv vasitəsi olaraq dəyərləndirilir. Bir nüansa da diqqət etmək vacibdir ki, qərarların qəbul edilməsi prosesində etnik azlıqların nümayəndələrinin həmiştirakı və mövqelərinin nəzərə alınması əhəmiyyətli dəyər olaraq qəbul olunmuşdur. Bu da dövlət sektoru tərəfindən verilən xidmətlərin təkmilləşdirilməsinin əsası olaraq elan edilmişdir. |
| **“Pozitiv diskriminasiya “ siyasətinin izahı** | İctimai siyasətin etnik azlıqların nümayəndələri üçün əsas ictimai mülk və faydaya yönəlmiş siyasi sahə kursları müxtəlif proqram və layihələr şəklində həyata keçirilir. |

| Etnik azlıqların nümayəndələrinin siyasi və mülki inteqrasiyasına kömək edən mexanizmlər | İzah |
|---|---|
| | Baxmayaraq ki, qeyd edilən kursların dəyərləndirilməsi qarşıdurmalarla səciyyəvidir, lakin siyasi effektivlik baxımından onların effektivliyi kasıblıq, səhiyyə, işsizlik və başqa problemlərin həll edilməsi üçün fəal olaraq istifadə edilir. Bu baxımdan etnik azlıqların nümayəndələri üçün təhsilin əlçatanlığına yönəldilmiş proqramlar xüsusilə fəal şəkildə istifadə edilir. Buradaca, iqtisadi və sosial inkişafa yönəlmiş intervensialara da xüsusi diqqət yetirilməlidir. Pozitiv diskriminasiya siyasətinin həyata keçirilməsi sahələrə görə məhdudlaşdırılmamışdır və buna uyğun olaraq da, həll edilməsi baxımından bu qrupun təmsilçiləri üçün əhəmiyyət daşıyan bütün konkret problemlərin tənzimlənməsini əhatə edir. Almaniya, Hollandiya və Danimarka isə etnik azlıqlarda qadınların ehtiyaclarının təmin edilməsinə diqqət yetirir. Bolqarıstan, Rumuniya, Çexiya və Macarıstan isə əsasən qaraçıların azlıqlarında təhsilin əlçatanlığının və yaşam şərtlərinin yaxşılaşdırılmasına diqqət edir. |
| **İnklüziv əmək bazarı prinsiplərindən istifadə etmək** | Sözügedən etnik azlıqların əmək hüquqlarının təmin edilməsi məqsədi ilə ilk növbədə etnik mənsubiyyətinə görə seqreqasiya edilmiş əmək bazarı əlehinə mübarizəni nəzərdə tutur. Etnik azlıqların nümayəndələrinin əmək bazarına inteqrasiya edilməsi məqsədilə fəal addımların atılmasına məqsədyönlü proqramların həyata keçirilməsi ilə nail olmaq olar və bu etnik azlıqların kompakt şəkildə məskunlaşdığı regionlarda iş yerlərinin təmin edilməsi məqsədilə investisiya layihələrinin həyata keçirilməsini həvəsləndirəcək motivasiyaların ortaya çıxarılmasını nəzərdə tutur. Elə buradaca, əmək bazarının tələblərinə yaxınlaşmaq məqsədilə, etnik azlıqlarda müvafiq bilik və bacarığın yaradılmasının qayğısına qalmaq müzakirə edilir. O da əhəmiyyətlidir ki, Avropa ittifaqında etnik baxımdan rəngarəng iş mühitinin üstünlüklərinin ön plana çıxarılması və əsasının qoyulması siyasəti fəal olaraq bir sıra kompaniyalar vasitəsilə həyata keçirilir. Belə kompaniyalardan biri, “diskriminasiya əlehinə rəngarənglik” onun analoji alman versiyası isə “daha çox imkanlar üçün rəngarənglik” adlı kompaniyadır. |
| **Stereotiplər əlehinə mübarizə** | Etnik azlıqların nümayəndələrinin hüquqlarının təmin edilməsinə qayğı göstərmək dedikdə, onlar haqqında mövcud olan stereotiplər əlehinə mübarizə və müvafiq kompaniyaların aparılması nəzərdə tutulur, ki, bu da Avropa ittifaqına mühacirlərin yeni axınının daxil olması ilə birlikdə xüsusi ilə aktual oldu. Stereotiplər əlehinə mübarizə aparılması məqsədi ilə, antidiskriminasiya narativinin əsasının qoyulmasına qayğı göstərmək də xüsusilə əhəmiyyətlidir. Buna da həm yazılı media, həm də elektron media vasitələri ilə fəal əməkdaşlıq nəticəsində nail olmaq olar. |
| **Dil barieri əlehinə mübarizə** | Dil barierlərinin azaldılması Avropa ittifaqı miqyasında, eləcə də dünyanın ən yaxşı təcrübəsi ilə ən əhəmiyyətli məqsəd olaraq dəyərləndirilir. Bu baxımdan, dövlət sektoru tərəfindən məktəb təhsil sistemində etnik azlıqların dillərini bilən müəllimlərin inteqrasiya edilməsi, etnik azlıqların nümayəndələri olan müəllimlər üçün isə dövlət dilinin bilinmə səviyyəsinin yaxşılaşdırılması kimi intervensialara xüsusi diqqət yetirilir. Etnik dili bilən və bilməyən müəllimlərin tədris prosesinə birgə inteqrasiya edilməsi ilə kollegial tədris fəal olaraq müzakirə edilir. Eyni səviyyədə, məktəblərdə mədəniyyətlər arası bacarıqların işlənməsinə diqqət yetirilir və məktəbəqədər tədris- tərbiyə müəssisələrində formal təhsil pilləsinə keçənə qədər etnik azlıqların nümayəndələri olan uşaqlarda dil və mədəniyyət barierlərinin aradan qaldırılmasına xüsusi diqqət edilir. Elə burada həmçinin “ikinci şans” adı ilə tanınan proqramların fəal olaraq həyata keçirilməsinə baxılır. Bu proqramlar isə böyüklərin təhsilində istifadə edilir. |
| **Etnik azlıqlarının nümayəndələrinin qarşısında duran problemlərə cavab olaraq vətəndaş cəmiyyətinin təmsilçiləri ilə əməkdaşlıq.** | Avropa ittifaqı etnik azlıqların problemlərinə qarşı vahid güclərlə mübarizə aparmağın mütləqliyini qəbul edir vəetnik azlıqların nümayəndələrinin ehtiyaclarının öyrənilməsi və onların qarşısında duran problemlərin idarə edilməsi mexanizmlərinin axtarılması prosesində vətəndaş cəmiyyətinin nümayəndələri ilə əməkdaşlıq əlaqələrinin mütləqliyinə diqqət yetirir. Xüsusi diqqət isə, peşəkar asossiasialarla, biznes təşkilatları ilə və başqa maraqlanan fəallarla, xüsusilə də etnik azlıqların məsələləri ilə işləyən qeyri hökumət təşkilatları ilə və birbaşa etnik azlıqların özləri ilə əməkdaşlığa yönəldilir. |

**İstifadə edilmiş mənbələr:**


1. Broad, R.. (2007). 'Knowledge Management': A Case Study of the World Bank's Research Department. *Development in Practice*, *17*(4/5), 700–708. Retrieved from http://www.jstor.org/stable/25548272
2. Crowley, J. (2001). The Political Participation of Ethnic Minorities. *International Political Science Review*, *22*(1), 99–121. https://doi.org/10.1177/0192512101221006
3. Ethnic Minorities for Labour Market (2007), Report of the High Level Advisory Group of Experts on the Social Integration of Ethnic Minorities and their Full Participation in the Labour Market. Retrieved from file:///C:/Users/Nani%20Macharashvili/Downloads/etmin_en.pdf
1. Indian and Northern Affairs Canada. Comprehensive Community Planning: Experiences in First Nations, Inuit and Northern Communities. Ottawa: Her Majesty the Queen in Right of Canada, 2004. Retrieved from www.aadnc-aandc.gc.ca/DAM/DAM-INTER-BC/STAGING/texte-text/ccphb_1100100021973_eng.pdf
2. *NGOs' recommendations for Georgia's OGP Action Plan* (2014-2015), Retrieved from https://idfi.ge/public/upload/%E1%83%A1%E1%83%90%E1%83%9A%E1%83%9D%E1%83%9B%E1%83%94/recommendations.pdf
3. Paul A. Sabatier and Hank C. Jenkins-Smith, eds. *Policy Change and Learning: An Advocacy Coalition Approach* (Boulder, CO: Westview Press, 1993*).*
4. Saha, D.. (2009). Factors Influencing Local Government Sustainability Efforts. State & Local Government Review, 41(1), 39–48. Retrieved from http://www.jstor.org/stable/2546980
5. Young, Eóin and Lisa Quinn (2012) *Making research evidence matter: A guide to policy advocacy in transition countries*. Budapest: Open Society Foundations. Createch Ltd: Hungary. Retrieved fromhttp://www.icpolicyadvocacy.org/sites/icpa/files/downloads/policy_advocacy_guidebook_-_making_research_evidence_matter_-_young_and_quinn_2012_0.pdf, accessed 17 October, 2015.


**Faydalı keçidlər:**

1. Handbook on Integration for Policy-Makers and Practitioners (European Commission, 2010)
2. https://emc.org.ge/ka/products/saarchevno-sistemebi-saertashoriso-gamotsdileba - EMC- tərəfindən hazırlanan dərslik sənəd etnik azlıqların hüquqları ilə bağlı beynəlxalq standartların icmal edir. Dərslik gürcü, azərbaycan və rus dillərində dərc edilmişdir və o bu mövzu ilə maraqlanan hüquqşünaslar, tələbələr, dövlət qulluqçuları və mövzunun fəalları üçün nəzərdə tutulmuşdur.